**Azərbaycan Respublikasi Dövlət Miqrasiya Xidməti Kollegiyasinin**

# Q Ə R A R I

**22 dekabr 2016-cı il**
**№ 20**

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyasının 2013-cü il 27 noyabr tarixli 23 nömrəli Qərarı ilə təsdiq edilmiş "Cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 2-ci hissəsinin icrası məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 18-ci bəndinə əsasən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyasının 2013-cü il 27 noyabr tarixli 23 nömrəli Qərarı ilə təsdiq edilmiş "Cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3.1-ci yarımbənddə "331-ci, 339-cu, 340-cı və 340-1-ci" sözləri "566-cı, 575-ci, 577-ci və 578-ci" sözləri ilə əvəz edilsin;

1.2. 1.3.2-ci yarımbənd aşağıdakı məzmunda verilsin:

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.65-ci, 5.66-cı və 5.67-ci bəndləri;".

1.3. aşağıdakı məzmunda 2.6.1.2.6-cı yarımbənd əlavə edilsin:

"2.6.1.2.6. Pasport və ya digər sərhədkeçmə sənədi (sənədin nömrəsi, verilmə tarixi);".

2. Qərar qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunsun.

**Azərbaycan Respublikası**
**Dövlət Miqrasiya Xidmətinin rəisi**

**II dərəcəli dövlət**
**miqrasiya xidməti müşaviri** **Firudin Nəbiyev**